BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2015*

# SOSİOLOGİYA

**UOT 316.42**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN CƏMİYYƏTİNİN TƏKAMÜLÜ TƏHLÜKƏSİZLİK KONTEKSTİNDƏ

**T.R.EYVAZOVA**
***Bakı Dövlət Universiteti***
***esmer-eli.4@mail.ru***

*Məqalə XX əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyəti dövründə insanların sosial təhlükəsizliyini təmin etmək sahəsində həyata keçirilən tədbirlərin təhlilinə həsr olunmuşdur. Bu halda başlıca diqqət dövlətin həmin sahədə fəaliyyətinin əsas istiqamətləri üzərində cəmləşdirilir, sosial təhlükəsizlik baxımından seçilən vasitələr, formalar tarixi kontekstdə qiymətləndirilir, əsas problemlər və onların səbəbləri araşdırılır. Ehtiyacı olanlara sosial yardımların verilməsi, kimsəsiz uşaqların və yaşlıların dövlət tərəfindən himayə edilməsi, ən zəruri mallara tələbatın ödənilməsi üçün xüsusi qurumların yaradılması, qanunvericilik bazasının müasirləşdirilməsi və s. Azərbaycan Xalq Cümhuriyyətinin sosial təhlükəsizlik sistemini qərarlaşdırmaq istiqamətində səylərini aydın nümayiş etdirir.*

**Açar sözlər:** sosial sfera, sosial müdafiə, sosial siyasət, sosial təminat, sosial təhlükəsizlik, sosial fəaliyyət

Təhlükəsizlik dövlətin, cəmiyyətin və şəxsiyyətin vacib həyati maraqlarının daxili və xarici təhdid və təhlükələrdən mühavizə olunmasıdır. Əsas məqsəd konkret dövlətin vətəndaşlarının beynəlxalq normalara və konstitusiya aktlarına uyğun hüquq və azadlıqlarının, eləcə də sosial müdafiəsinin təmin olunmasıdır. Təhlükəsizlik həm də cəmiyyətin, dövlətin, şəxsiyyətin təhlükəsizliyini təmin edən sosial fəaliyyətin nəticəsidir. Bu fəaliyyətdə milli dəyərlər, ölkənin maddi, intelektual mülkiyyəti, eyni zamanda milli həyat tərzinin mahiyyət və formasının qorunması prinsipi əsas götürülməlidir. Təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi nöqteyi-nəzərindən hər bir suveren dövlət milli təhlükəsizlik siyasətinə malik olur. Milli təhlükəsizlik daxili və xarici təhlükələrdən qorunmaq məqsədi ilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, sosial, hüquqi tədbirlər sistemilə, habelə çevik daxili və xarici siyasətlə bağlıdır. Dünyanın qabaqcıl ölkələrindən olan ABŞ-da Sosial Təhlükəsizlik haqqında qanun 1952-ci ildə Sosial Təhlükəsizlik Haqqında Konvensiya (102 saylı) adı altında qəbul olunmuşdur.

Bu konvensiya Beynəlxalq Əmək Təşkilatının, o cümlədən sosial təhlükəsizliyin əhatə etdiyi ənənəvi potensial öhdəlikləri müəyyən edir.

Respublikamızda isə Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının №712-llQ Qanunu 29 iyun 2004-cü ildə qəbul edilmişdir.

Sosial təhlükəsizlik milli təhlükəsizlik sahəsinin bir hissəsi olub, onun vacib istiqamətlərindədir. Milli təhlükəsizliyin obyekti kimi dövlət prizmasından dövlətin konstitusion quruluşu, suverenliyi, ərazi bütövlüyü nəzərdə tutulduğu halda, Sosial təhlükəsizliyin obyektinə isə cəmiyyət, onun maddi və mənəvi dəyərləri, şəxsiyyət, onun hüquq və azadlıqları daxil edilir. Sosial təhlükəsizlik icraçılarının səmərəli fəaliyyəti nəticəsində dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsinə yönəlmiş təhdidlər azaldıla və ya tamamilə aradan götürülə bilər. Sosial təhlükəsizliyin obyekt və subyektləri tarixi inkişaf prosesində dəyişikliklərə məruz qala bilər. Bu, tarixi inkişaf prosesində zəruri olan həyat şəraiti ilə bilavasitə bağlı bir haldır. “Sosial təhlükəsizlik” termini ilk dəfə milli zəmində 1904-cü ildə ABŞ konqiresində T.Ruzvelt tərəfindən işlədilmişdir və bundan sonra elmi dövriyyəyə daxil edilmişdir.

Sosial təhlükəsizliyin təmin olunmsında sosial müdafə siyasəti vacib dövlət proqramı olaraq, əhalinin rifahının yaxşılaşdırılması məqsədi ilə həyata keçirilir.

Zənnimizcə, bu zaman konkret sosial-iqtisadi şəraitdə sosial müdafiəyə ehtiyacı olan sosial təhlükəsizlik obyektlərini nəzərdən keçirməliyik. XX əsrin 20-ci illərində mövcud olan hökumətin sosial müdafiə siyasətinə nəzər salaq.

Dövlətin sosial müdafiə siyasəti əsasən ağır həyat şəraiti olan əhaliyə, yəni qocalara,valideyn himayəsindən məhrum uşaqlara, xəstələrə, işsizlərə və s. istiqamətlənmiş dövlət fəaliyyəti proqramıdır. Buraya əhalinin rifahının yaxşılaşdırılması: tibbi qayğı, ərzaq və mənzil təminatını, əlillərin sosial reabilitasiyası və sairəni əhatə edən sosial tədbir planları daxildir.

Elmi ədəbiyyatlarda, eləcə də Kütləvi İnformasiya Vasitələrində ”sosial müdafə” termini sosial xidmətlər kimi də istifadə olunur.”Sosial müdafiə” anlayışı ”sosial dəstək” anlayışı, “güzəşt” və “zəmanət” anlayışları isə “sosial dəstək tədbirləri” ilə sinonimlik təşkil edir [4, 13].

Azərbaycan Respublikasının müstəqillik yollarına nəzər salaraq fikrimizi aydınlaşdıraq. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövrü XX əsrin əvvəlləri kimi kritik bir dövrə təsadüf edirdi. Məhz AXC dövründə sosial təhlükəsizlik tədbirləri əhaliyə yüksək səviyyədə tətbiq olunmuşdur. Şərqdə ilk demokratik dövlət – Azərbaycan Cümhuriyyətinin görkəmli nümayəndələrindən olan Məmməd Əmin Rəsulzadə sosial tərəqqinin əsasını maddi və mənəvi tərəqqidə görürdü. Çox güman ki, mənəvi tərəqqi deyəndə, o, hər şeydən öncə milli özünüdərkin zirvəsi sayılan milli istiqlalı nəzərdə tutmuşdur. Odur ki, əvvəlcə mənəviyyat zəngin olmalıdır, yəni milli şüur yetkinləşib, püxtələşməlidir. Mənəviyyat dolğun olduqdan sonra maddi tərəqqi qat-qat asandır. ”Əcələ bir surətdə maddətən tərəqqi edib də mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih

edirəm, çünki milliyyətin də, bəşəriyyətin də faidəsi bundadır" [2, 14]. Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib Bəy Yusifbəyli kimi görkəmli Azərbaycan xadimləri AXC dövründə qısa bir müddətə ordu quruculuğu, məktəblərin milliləşməsi, sosial-siyasi və iqtisadi tədbirlər planını həyata keçirmişdirlər. Ölkənin xammalının dünya bazarına çıxarılmasından əldə olunan gəlirin Azərbaycan xalqının sosial, milli, iqtisadi təhlükəsizliyi sahələrinə sərf etməklə xalqın rifahına xidmət etmişdirlər.

Məmməd Əmin Rəsulzadə 1914-1917-ci illərdə Qars və Ərdəhan qaçqınlarına maddi yardım tədbirlərində fəal iştirak etmişdir. O, 1915-ci il mayın 7-nə təyin olunmuş " Qardaş günü " adlı xeyriyyə tədbirində əhalini fəal iştirak etməyə çağırmışdı. "Sabah (pəncşənbə günü) cəmiyyəti-xeyriyyə tərəfində oğlanlı-qızlı cavanlar əllərində ianə cübələri, sinələrində "Qardaş kömәgi" həmayalı olduğu halda, Bakının küçələrinə yayılacaq, Qars və Ərdəhan səmtlərində fəlakətə uğrayan müsəlman qaçqınları üçün kömək istəyəcəklərdir" [2, 25]. Cümhuriyyət rəhbərləri sosial-iqtisadi, siyasi tədbirlərin həyata keçirilməsi ilə kifayərlənməyərək bütövlükdə xalqın həyat səviyyəsini yüksəltməyə çalışırdılar.

Bu gün isə təhlükəsizlik hərbi vasitələrlə təmin edilən siyasət deyil, tamamilə yeni çoxşaxəli tədbirlər sistemidir. Müstəqil Azərbaycan Respublikasında əhalinin təhlükəsizliyinin təmin olunması sahəsinə iqtisadi, siyasi, mədəni, sosial, hüquqi intelektual, şəxsi, mənəvi təhlükəsizlik istiqamətləri də əlavə olunmuşdu. Hazırda Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulmuş, 20% torpaqlarımız erməni işğalı altındadı. Bir milyondan çox Azərbaycan əhalisi qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Azərbaycan Respublikası öz vətəndaşlarına sahib çıxaraq onların təhlükəsizliyinin təmin olunmasında adekvat addımlar atmışdır. Lakin "Qarabağ problemi" hələ həllini tapmamışdır. "BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin bizim ərazimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, onlar kağız üzərində qalır. Ona görə də, bu məsələnin tezliklə həll edilməsi regionun bütün ölkələrinin maraqlarına uyğundur." Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin bəyanatı [3, 8].

Məlumdur ki, sosial müdafiənin bir sahəsi də insanların mənzil şəraitinin yaxşılaşdırılmasıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə sosial müdafiənin bu sahəsində insanların mənzil şəraitinin yaxşılaşdırılması sahəsində vacib işlər görmüşdü. 1918-ci il aprel ayında Bakı şəhər Mərkəzi Mənzil Komitəsi yaradılmışdır. Əsas vəzifəsi seçkili orqan olaraq rayon və məntəqə mənzil komitələrinə rəhbərlik etmək idi [1, 236].

Komitə əhalinin şəxsi və əmlak təhlükəsizliyi, ərzaq təminatı və şəhərin sanitariya məsələləri ilə məşğul olmuşdu. 1918-ci il sentyabr ayının 27-sində Komitənin tərkibində qida məntəqələri şöbəsi yaradılmışdı. 1919-cu ilin noyabr ayına qədər fəaliyyət göstərən şöbə Bakıda və onun müxtəlif yerlərində - Bayıl, Suraxanı, Ramana, Sabunçu, Maştağa və Bülbülə kimi mədən rayon-

larında 17 qida məntəqəsi, 2 yeməkpaylama məntəqəsi və 5 çayxana açmışdır. Bu məntəqələrin fəaliyyət göstərməsi nəticəsində insanlar aclıqdan və yatalaq xəstəliyindən ölmək təhlükəsindən xilas olmuşdular.

Müasir Azərbaycan Respublikası əhalinin, xüsusilə Qarabağ müharibəsi zamanı qaçqın və köçkün düşmüşlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün səmərəli tədbirlər planı işləyib hazırlamışdır. Prezident İlham Əliyev 2003-2014-illərdə qaçqın və məcburi köçkünlərlə bağlı keçirilən müxtəlif tədbirlərdə şəxsən iştirak etmiş, o cümlədən yeni salınmış yaşayış qəsəbələri və məhəllələrinin böyük əksəriyyətinin açılışına da bilavasitə rəhbərlik etmişdir, həmçinin bu problemə həsr olunmuş bir beynəlxalq konfrans və iki geniş müşavirə keçirilmiş, bir dövlət proqramı və ona iki əlavələr təsdiq etmişdir.

“Eyni zamanda ölkədə olan, istismar müddəti başa çatmış 16 fin tipli qəsəbədən 12-si ləğv edilmiş, orada müvəqqəti məskunlaşmış 4400 məcburi köçkün ailəsi yeni salınmış qəsəbələrə köçürülmüşlər. Qalan 4 fin tipli qəsəbədə və ayrı-ayrı şəhər və rayonlardakı məktəb binalarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün həmin qəsəbələrin yerləşdiyi ərazilərin yaxınlığında elektrik enerjisi, su təchizatı, təhsil, mədəniyyət, səhiyyə və digər zəruri sosial-texniki infrastrukturu olan qəsəbələrin salınması və ya çoxmərtəbəli binaların tikilməsi məqsədi ilə torpaq sahələri ayrılmış və müvafiq layihə-smeta sənədlərinin hazırlanması işləri həyata keçirilmişdir” [13].

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə 1920-ci il yanvarın 5-də müxtəlif ticarət-sənaye, neft sənayesi, bank müəssisələri nümayəndələrinin, ayrı-ayrı sahibkarların təşəbbüsü nəticəsində şəhər rəisinin yanında çağrılmış müşavirənin qərarı ilə Bakı Şəhəri Rəisi Yanında Zəruri Ərzaqların Ucuzlaşdırılması Komitəsi yaradılmışdı. Komitənin əsas vəzifəsi Bakı şəhərinin ehtiyacı olan əhalisinə yardım göstərmək idi. Zəruri Ərzaqların Ucuzlaşdırılması üzrə komissiya sonrakı fəaliyyəti dövründə öz üzvləri sırasından ayrıca komitə yaratmışdı. Sözügedən komitənin hazırladığı nizamnaməni 1920-cı il fevralın 7-də ticarət-sənaye və ərzaq naziri təsdiq etdi. Komitə martın 4-də qeydiyyatdan keçdi [1, 239].

Komitə toplanmış vəsaiti əsasən çörək, ət və balıq alınmasına sərf edirdi. Ərzaq naziri ilə razılaşmaya əsasən taxıl bürosu ilk növbədə “Kooperasiya”nı və “Sentrdom”u unla təmin edirdi. Çörəkxanalar bişirdiyi çörəyin bir pudunu 5 manata satırdı. Komitə əvvəl bunun 2 manatını sonra isə 3,5 manatını ödəməyi öz üzərinə görürmüşdü. Hər gün 6 min fund çörək bişirilirdi. Bakı şəhər rəisliyinin daha çox ehtiyacı olan kəndlərinə 400 puda yaxın ucuz arpa çörəyi də paylanırdı. Əhalinin 40% -nin hər nəfərinə 1 fund hesabı ilə buraxılan çörəyin 1 fundunun qiyməti 3,5 manat idi ki, bunun da 2,5 manatını Komitə ödəyirdi. Əhalinin ətə ehtiyacının ödənilməsi üçün Komitə balığın ucuzlaşdırılması məqsədi ilə “Kooperasiya”ya 300 min manat faizsiz borc vermişdi. “Kooperasiya “ hər gün komitəyə 500 pudadək təzə balıq verirdi. Əhalini ətlə təmin etmək məqsədi ilə Komitə şəhərə ət gətirilməsi müqabilində podratçılara 5 milyon manat avans ayırmışdı. Ətin qiyməti də həmin dövr üçün kifayət

qədər uçuz idi. Mal əti 18 manata, camış ətinin qiyməti 15 manata satılırdı. Komitə podratçılara mədən rayonuna diri heyvan gətirməyi də tapşırmışdı. Heyvanlar kəsildikdən sonra həmin rayondakı 12 bölüşdürmə məntəqəsinə paylanırdı. Ət həmin rayonda, həmin məntəqədə şəhərdəki qiymətə satılırdı. Çörəyə ehtiyac hər bir dövrdə vacib məsələ idi. Ucuz isti çörəyə ehtiyacı nəzərə alaraq, şəhərətrafı qəsəbələrdə və kəndlərdə yeməkpaylama məntəqələri yaradılmışdı. Maddi ehtiyacı olan, xususi qayğıya ehtiyacı olan xalq kütləleri bu məntəqələrdən yararlanırdılar və aclıqdan ölmək təhlükəsindən qurtulurdu. Yeri gəlmişkən qeyd edək ki, Avropa ölkələrində bu cür tədbirlər XX əsrin ortalarında həyata keçirilmişdi. 1920-ci ilin martında əhalinin sosial durumunda çox böyük işlər görmüş, gündəlik yaşayış üçün əhalinin ehtiyacının böyük qismini öz üzərinə götümüş Komitə Ticarət, Sənaye və Ərzaq Nazirliyinin tabeliyinə keçdi.

Hazırkı günümüzdə isə sosial durumun yüksəldilməsi dövlət proqramları vasitəsi ilə tənzimlənir. Təkcə 2015 ci ilin birinci yarım ilinin göstəricilərinə görə ümumi daxili məhsul 5 faizdən çox artmışdı. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir: ”Bu gün dünyada 5.3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox az olur” [2, 1]. Kənd təsərrüfatında da 3 faizdən çox artım olmuşdur. Bu ilin birinci rübündə sənaye istehsalı təxminən 4 faiz artmışdır. Bu da görülən işlərin nəticəsidir. Keçən il (2014) Azərbaycanda “Sənaye ili” elan edilmişdir, bu sahədə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sahəsində sənaye potensialımız böyük dərəcədə yüksəlmişdir. 2015-ci ilin birinci rübünün göstəricilərinə görə 30 minə yaxın iş yeri (onlardan 25 mini daimi iş yeridir) açılmışdır. Prezident İlham Əliyev öz çıxışında bildirmişdir: ”Bu daimi prosesdir, çünki dəfələrlə qeyd etdiyim kimi, Azərbaycanda müsbət demoqrafik vəziyyət mövcuddur. Hazırda işsizlik və yoxsulluq ən aşağı səviyyədədir, 5 faiz səviyyəsindədir” [2, 1]. Azərbaycan Respublikasının dinamik inkişafı nəticələrini verməkdədir. Bu müqayisə daha güclü dövlətin siyasətini açıq şəkildə göstərməkdədir. Sosial məsələlər öz həllini tapır. 2015-ci ildə bütün sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün dövlət büdcəsindən əlavə vəsait ayrılır, məktəblər, uşaq baxçaları, tibb müəssisələri tikilir. 2015-ci ilin göstəricilərinə görə 20-dən çox tibb müəssisələri tikilmiş və təmir edilir, əhalinin diaqnostika məsələləri öz həllini tapır. Müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçmişdir. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial durum, sosial təhlükəsizlik təkcə dövlət səviyyəsində həllini tapmırdı, həm də qeyri-hökumət təşkilatları bu tədbirlərdə fəallıq nümayiş etdirirdilər. Bakı Şəhər və Xalq məktəblərinin şagirdlərinə yardım cəmiyyəti-qeyri-hökumət xeyriyyə təşkilatı

olaraq 1907-ci ilin aprel ayında yaradılmışdı. İdarə heyətinin üzvləri İ.Qasımov, Hənəfi Terequlov, İsabəy Aşurbəyli; həqiqi üzvləri Ə.Aslanov, İ.Axundov, B.Aşurbəyov, İ.Aşurbəyov, M.Əsədullayev, A.Babayev, A.Vəlibəyov, D.Vəzirov, M.Hacıbababəyova, R.Hacıbababəyova, M.Hacıbəyova, B.Qayıbov, K.Kazımov, M.Mahmudbəyov, A.Mehdiyev və b. idilər. Cəmiyyətin məqsədi Bakı şəhər və xalq məktəblərinin ehtiyacı olan şagirdlərini geyim yemək və mənzillə təmin etmək, onlara tibbi yardım göstərmək, valideynləri işdə olan şagirdləri gündüzlər sığınacaqla təmin etmək idi. 1919-cu ildən həmin cəmiyyət uşaq evlərinin yaradılması ilə də məşğul olurdu. 7-8 türk və 5 rus məktəbi nəzdində uşaq evləri təşkil olunmuş, ehtiyacı olan ailələrin uşaqları və valideyn himayəsindən məhrum uşaqlar oraya yerləşdirilmişdi. Həmin məktəblərin böyük həyətləri, geniş mətbəxləri və yeməkxanaları var idi. Tədris başlayarkən cəmiyyət məktəblərdə isti səhər yeməyi verir, həmçinin imkansız şagirdləri pulsuz dəftərxnana ləvazimatları ilə təmin edirdi. Xalq məktəblərində çox sayda xeyriyyəçilik tədbirləri həyata keçirən cəmiyyət daim maddi cəhətdən imkansız uşaqlara, yeniyetmələrə diqqət yetirirdi. Cümhuriyyət hökuməti də əhaliyə yaxından kömək edirdi. Təssüflər olsun ki, AXC–nin süqutundan sonra həmin cəmiyyət də öz fəaliyyətini dayandırdı.

Qeyri-hökumət təşkilatları ehtiyacı olan əhali quruplarına sosial yardım göstərməkdə fəal iştirak edirdilər. Belə qeyri-hökumət təşkilatlarından biri olan Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti (BMXC) mədəni-maarif və sosial yardım sahələrində fəaliyyət göstərən könüllü ictimai qurum idi. Nizamnaməsi 1905–ci il oktyabrın 10-da Tiflisdə Qafqaz canişini qraf Vorontsov Daşkov tərəfindən təsdiq edilmişdi. Cəmiyyətin ilk iclasında onun 11 nəfərdən ibarət idarə heyəti secilmişdi. Hacı Zeynalabdin Tağıyev idarə heyyətinin sədri idi. BMXC-nin ideya istiqamətini Həsən Bəy Zərdabi və onun həmfikirləri müəyyənləşdirirdi. Cəmiyyətin məqsədi, maliyyə mənbəyi, fəaliyyət mexanizmi onun nizamnaməsində dəqiq ifadə olunmuşdu. Cəmiyyətin idarə heyəti "İsmailiyyə"də (hazırkı Milli Elmlər Akademiyası Rəyasət Heyətinin İstiqlaliyyət küçəsindəki binası) yerləşirdi. Sözügedən cəmiyyət əvvəllər, başlıca olaraq, Bakıda və onun ətrafında fəaliyyət göstərirdi. Daha sonra həmin cəmiyyət fəaliyyət göstərdiyi məkanların sayını çoxaltdı.

BMXC Birinci dünya müharibəsi illərində (1914-1918) öz nizamnaməsində bəzi dəyişikliklər edərək, fəaliyyətini xeyli dərəcədə genişləndirmişdi. Bakı müsəlmanlarının Xeyriyyə Cəmiyyəti Qafqaz cəbhəsində qaçqın düşənlərə, yetim uşaqlara, əsir düşmüş türk əsgərlərinə yardım etmişdir. "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkilliy"-in nəzdində BMXC -nin baş müvəkkili var idi. Bu vəzifə Xosrov Paşa bəy Soltanova həvalə olunmuşdu. Müharibə dövründə cəmiyyətin şəhərdə onlarla məntəqəsi fəaliyyət göstərirdi. Cəmiyyətin nəzdində "Fəlakət və hərbzadələrə yardım şöbəsi" yaradılmışdı. Cəmiyyətin AXC dövründə fəaliyyəti davam etmişdi. Bu dövrdə həmin cəmiyyətin sədri Qasım Qasımov idi. Cəmiyyət yenə də qaçqınlara, yaralı türk əsgərlərinə yardım göstərirdi. Qaçqınlar, İçəri şəhərdəki

keçmiş əsgər kazarmasında, "Şəfa" məktəbində, qaçqın uşaqları isə yetimxanalarda yerləşdirilirdi. Cəmiyyət yetimxanalarda olan uşaqların cəmiyyət üçün yararlı yetişməsi üçün 1920-ci ilin əvvəllərində AXC-nin Xalq Maarifi Nazirliyinə ərizə ilə müraciət edərək, müsəlman yetimxanalarında dərzilik, çəkməçilik, xarratlıq və s. sənətlər üzrə peşə emalatxanalarının yaradılmasını xahiş etmişdi. BMXC Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında sosial yardım sahəsinin formalaşmasında əhəmiyyətli rol oynamışdı. Geniş bir sahə olan sosial təhlükəsizlik tədbirləri bununla bitmirdi. Zənnimizcə, iyirmi üç aylıq hakimiyyəti dövründə AXC sosial təhlükəsizlik sferasında əsaslı işlər görmüş, XX əsrin əvvəlləri kimi ziddiyyətli bir tarixi dövrdə bu fəaliyyətlə Azərbaycanda sosial təhlükəsizliyin əsasını qoymuşdur.

Yeri gəlmişkən, deyə bilərik ki, günümüzdə Azərbaycan hökumətinin sərəncamı ilə Dövlət Sosial Müdafiə Fondu 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımın çatdırılmasını təmin etmişdir.

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Elman Mehdiyev KİV nümayəndələrinə bildirmişdir ki, "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2015-ci il tarrixli "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" sərəncamı hazırkı vəziyyətə 18 881 nəfər şamil olunub ki, bunlardan 1342 nəfəri bilavasitə Böyük Vətən müharibəsi iştirakçılarıdır. Sərəncama əsasən bu kateqoriyadan olan şəxslərə 800 manat məbləğində birdəfəlik yardım göstərilib" [12, 2].

Fikrimizcə, qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun xidmətlərindən danışmaq yerinə düşərdi. 2004-ci il may ayının 10-dan fəliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosail-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.

Elə ilk dövrdən təhsilə yardımı vacib hesab edən Fond ictimaiyyətin diqqətini müasir dünyada hər bir ölkənin inkişafının əsasında dayanan təhsilə yönəltdi. Bu, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsində əksini tapdı. Mehriban Əliyevanın təşəbbüsü ilə real mənzərəni qiymətləndirmək üçün ölkədəki məktəb binalarının vəziyyəti öyrənildi. Ötən dövrdə işlər nəticəsində Fondun xətti ilə inşa olunan orta məktəblərin sayı 500-ə çatdı. Bununla yanaşı, "Təhsilə dəstək" layihəsini də uğurla həyata keçirən Heydər Əliyev Fondu Pakistanda zəlzələ zamanı dağılmış qızlar məktəbini yenidən inşa etdirdi, Həştərxanda ulu öndər Heydər Əliyevin adını daşıyan məktəb, həmçinin Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kor və zəif görən uşaqlar və gənclər

üçün mərkəz yenidən quruldu. Bakıda yəhudi uşaqlar üçün 450 şagird yerlik "Xabad-Or-Avner" təhsil mərkəzi və fransız litseyi yaradıldı. Fond məktəbəqədər təhsil müəssisələri ilə bağlı mühüm addımlar atdı, "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" Proqramını irəli sürdü. "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı Heydər Əliyev Fonduna ictimaiyyət arasında daha çox rəğbət qazandırdı. Proqram çərçivəsində ölkə üzrə 30-dan çox uşaq müəssisəsi əsaslı təmir edildi və avadanlıqla təchiz olundu. Uşaq evlərində tərbiyə alan və 18 yaşı tamam olmuş qızlar üçün Azərbaycanın birinci xanımının təşəbbüsü ilə paytaxtın Nizami rayonunda 50 mənzillik bina inşa edildi. Bir neçə il sonra 68 mənzilli daha bir yaşayış binası tikildi.

Müqayisəli təhlilə əsaslanaraq deyə bilərik ki, əsası XX illərində qoyulan, əsrin ortalarında SSRİ kimi böyük imperiyanın tərkibinə daxil olmuş 1991-ci il 18 oktyabr tarixində yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası zamanın tələbinə uyğun olaraq inkişaf etmiş və qudrətlənmişdir. Müasir dövrə uyaraq iqtisadi, sosial, hərbi, intelektual potensialını daha da artıraraq gücləndirmişdir. Təhlükəsizlik sahəsində əldə olunmuş nailiyyətlər sözügedən siyasətin uğurla həyata keçirildiyinin göstəricisidir.

Azərbaycan Respublikasının Baş nazirinin müavini, Qaçqınlar və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənəv özünün "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti" kitabında bildirmişdir; "Təhlükəsizlik siyasətinin həyata keçirilməsində birinci ali məqsəd Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, vətəndaşların hüquqlarının, cəmiyyətin milli və vətəndaş birliyinin, ölkənin sabit inkişafının tələb etdiyi ən ümdə dövlət vəzifələri və onların təminatı yolları, mövcud milli ehtiyyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məhsuliyyətli dövlət idarəçiliyinin yaradılması təşkil etdi" [6, 54].

Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununda isə bildirilmişdir ki, Azərbaycan Respubliksının sosial sahədə milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakılardır;

1) vətəndaşların şəxsi təhlükəsizliyi, hüquq və azadlıqlarının təmin olunması zəmanətlərinin möhkəmlənməsi;

2) əhalinin sosial müdafiəsinin yüksəldilməsi və fiziki sağlamlığının qorunması üçün sosial müdafiə və səhiyyə sisteminin dünya standartlarına uyğunlaşdırılması;

3) cəmiyyətin kəskin təbəqələşməsinə yol verilməməsi üçün müvafiq sosial müdafiə və sosial inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi;

4) vətəndaşların sosial müdafiəsi üçün ayrılan vəsaitlərin səmərəli bölgüsünün və ünvanlı istifadəsinin təmin edilməsi;

5) qaçqın və məcburi köçkünlərin sosail problemlərinin həll edilməsi;

6) yoxsulluğun aradan qaldırılması;

7) miqrasiya və demoqrafik proseslərin tənzimlənməsi [7].

Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanununun istiqamətlənməkdə məqsədimiz hüquqi bazaya əsaslanaraq dövlətimizdə sosial

siyasətin uğurla həyata keçirilməsini göstərməkdir. Sosial siyasətin səmərəli həyata keçirilməsi üçün vacib fakt isə Qarabağ probleminin həllidir. Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsi hüququ, sosial, siyasi baxışdan əsrin əvvəllərində də və günümüzdə də təhlükəsizlik siyasətinin vacib istiqamətidir.

### ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, l c. Bakı: Lider, 2004, 440 s.
2. Azərbaycan qəzeti, №75(6929) şənbə, 2015, 11 aprel.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Viladimir Putinin 2013-cü ildə Azərbaycana rəsmi səfəri zamanı nitqi. // Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. Dirçəliş XXI əsr. №176-177/2013, s 8-10.
4. Cəfərov N. Milli-ictimai fikir tariximizdən. (1914-fevral 1917). Bakı: Azərnəşr, 1993, 80 s.
5. Hadi Rəcəbli. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: MBM, 2012, 408 s.
6. Həsənov Əli. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress nəşriyyat evi, 2011, 440 s.
7. Milli Təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhəri, 29 iyun 2004-cü il №712-llQ.
8.Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: BDU, 2002, 534 s.
9.Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: 2012.
10. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
11.Рагимов А.А., Гасанов Р.М. Трансформационные процессы и проблема национальной безопасности в Азербайджане. Баку: ИНФО, 2003, 150 с.
12. www.az.trend.az/azerbaijan/society/2383182.html Azərbaycan, Bakı, 13 aprel /Trend/
13. www.refugees-idps-committee.gov.az/az/pages/3html


## ПРОЦЕСС ЭВОЛЮЦИИ АЗЕРБАЙДЖАНСКОГО ОБЩЕСТВА В НАЧАЛЕ XX ВЕКА В КОНТЕКСТЕ БЕЗОПАСНОСТИ


**Т.Р.ЭЙВАЗОВА**


### РЕЗЮМЕ


Статья посвящена анализу мер, осуществляемых в целях обеспечения социальной безопасности людей в Азербайджане в начале XX столетия, в период существования Азербайджанской Демократической Республики. Основное внимание при этом уделяется анализу государственных мер, принимавшихся в указанном направлении. В историческом контексте рассматриваются избираемые для этой цели средства, формы, выявляются имевшиеся здесь проблемы и их причины. В частности, отдельно рассматриваются такие направления социальной политики, как выдача социальных пособий, государственная опека над беспризорными детьми и пожилыми людьми, создание особых структур для удовлетворения потребностей людей в самых насущных товарах, совершенствование законодательной базы и т.д. Все это ясно демонстрирует все те усилия, которые прявляло правительство Азербайджанской Демократической Республики в направлении создания системы социальной безопасности в стране.



**Ключевые слова:** социальная сфера, социальная защита, социальная политика, социальное обеспечение, социальная безопасность, социальная деятельность

## THE PROCESS OF EVOLUTION OF THE AZERBAIJANI SOCIETY IN EARLY XX CENTURY IN THE SECURITY CONTEXT

**T.R.EYVAZOVA**

**SUMMARY**

This article analyzes the measures implemented to ensure the social security of people in Azerbaijan in the early twentieth century, when he was the Azerbaijan Democratic Republic. The main attention is paid to the analysis of government measures taken in this direction. In historical context, forms selected for this purpose are considered, the main problems and their causes are disclosed. In particular, such fields of social policy as the issuance of social benefits, the state custody of street children and the elderly, creation of special structures to meet the needs of people for the most urgent goods, improvement of the legal framework etc. are studied. All these clearly demonstrate the efforts of the Democratic Republic of Azerbaijan in the direction of creating a system of social security.

**Key words:** social services, social protection, social policy, social security, social activities